

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 127 (7382) / Çərşənbə, 17 iyul 2019-cu il




Prezident İlham Əliyev:

## Bu gün Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır

Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. Hesab edirəm ki, bu istiqamətdə nailiyyətlər çox ümidvericidir. Bu gün Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır. İqtisadi inkişafımızın şaxələndirilməsi istiqamətində sahibkarların çox böyük rolu var. Dövlət öz tərəfindən çox ciddi islahatların aparılması istiqamətində addımlar atır və bu islahatlar yaxşı nəticələr verir.

### *Əli Həsənov:* Əminik ki, dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək



Bax: səh. 3

Bax: səh. 4



### Novruz Məmmədov Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri ilə görüşüb

Bax: səh. 5

### Bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar



### Azərbaycan regionda və MDB məkanında ilk ölkə kimi ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabat təqdim edib




Bax: səh. 5

Bax: səh. 6



### "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb

Bax: səh. 2



### Ali Baş Komandanın tapşırığına əsasən hərbi hissələr yoxlanılır

Bax: səh. 3

PİTER TEYS:

### Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri mədəniyyətlərarası dialoqu möhkəmləndirən mühüm təşəbbüsdür




7 "Yay məktəbi"nin 2-ci Oğuz turu gənclər üçün yaddaqalan olub

8 Bakı Ali Neft Məktəbində İngiltərə və Şotlandiya futbol komandalarının xeyriyyə oyunu keçirilib

16 Təsadüfən, amma yaxşı ki, ixtira olundu

# “ABAD” ailəsi genişlənir: dövlət kiçik biznesə, ailə biznesinə böyük dəstək göstərir





**Dövlətimizin həyata keçirdiyi siyasətin əsasında vətəndaş amilinin dayandığı atılan davamlı addımlardan daha aydın görünür. Təbii ki, güclü sosial siyasətin reallaşdırılması üçün iqtisadi tərəqqi əsasdır. Dövlətimizin yeni iqtisadi və sosial inkişaf modeli qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağa böyük stimul verir.**

Sosial siyasətin əsas istiqamətlərindən biri əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yüksəldilməsi, vətəndaşların ünvanlı sosial yardımdan asılılığının aradan qaldırılmasıdır. Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların məşğulluğunun təmin olunması, bununla da fəal həyat mövqeyinin formalaşması prioritetdir. Bu baxımdan dövlətimizin başçısı İlham Əliyevin 7 aprel 2016-cı il tarixli “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı, həmçinin 23 sentyabr 2016-cı il tarixli “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin yaradılması haqqında” Fərmanı mühüm əhəmiyyət kəsb edir. Bu sənədlər məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələnin əsasını qoymaqla bərabər, işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar açır.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda İlham Əliyev özünüməşğulluq proqramının icrasından geniş bəhs edərək bu inamı da ifadə etmişdir ki, “Ailə Biznesinə Asan Dəstək” layihəsinin sürətli inkişafını görəcəyik. “ABAD” mərkəzlər artıq yaradılır. Bu, fermerlərə, ailə təsərrüfatlarına imkan verir ki, öz məhsullarını müasir formada yerli və xarici bazarlara çıxarsınlar: “Fermerlərə, ailələrə konteynerlər, metodik tövsiyələr verilir, şərait yaradılır ki, onlar öz həyatlarını daha da yaxşılaşdıra bilsinlər. Bu günə qədər bu imkanlardan yararlanan fermerlər yaxşı məhsul istehsal edirlər. Bal, mürəbbə, ət və süd məhsulları, suvenirlər istehsal olunur. İndi ölkəmizə gələn turistlərin sayı kəskin şəkildə artır. Ona görə hər bir turist maraqlıdır ki, hansısa bir suvenir alsın. Əfsuslar olsun ki, bizdə bu günə qədər şəhərdə satılan, yeni şəhərimizi, ölkəmizi əks etdirən bu suvenirlər xaricdə istehsal edilir. Ona görə də bu, böyük bir qüsur, böyük bir boşluq idi. İndi çalışmalıyıq ki, bu suvenirlər Azərbaycanda istehsal olunsun və “ABAD” bu sahədə də öz işini görür. Ümumiyyətlə, mən sahibkarlara da müraciət etmək istəyirəm ki, bu sahəyə diqqət göstərsinlər. Çünki turistlərin sayı artacaq, suvenirlərə daha da böyük ehtiyac olacaqdır.”

Ölkə Prezidenti İlham Əliyev ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində davamlı addımların atıldığını önə çəkərək bu tapşırığı verir: “Bunun müqabilində iri biznes qurumları gərək öz sosial məsuliyyətini dərk etsinlər. Sosial məsuliyyət təkcə hansısa xeyriyyəçiliklə məşğul olmaq deyil. Sosial məsuliyyət, eyni zamanda, kiçik biznesə, ailə biznesinə dəstək göstərməkdir.” “ABAD” publik hüquqi şəxsin yaradılması ilə bağlı Fərmanın imzalanmasından sonra ilkin mərhələdə pilot layihələrin həyata keçirilməsi nəzərdə tutuldu. Pilot layihə uğurla başa çatdırıldıqdan sonra növbəti mərhələdə “ABAD”ın coğrafiyasının genişləndirilməsinin prioritetliyi açıqlandı. Pilot layihə qismində Masallıda 1 saylı regional ABAD mərkəz yaradıldı. ABAD mərkəzlərin yaradılmasında məqsəd adından da göründüyü kimi, ailə biznesinə asan dəstək göstərməkdir. Bu zərurəti şərtləndirən amillərə gəldikcə isə bildirildi ki, ölkə iqtisadiyyatının bir çox sahələrində ailə təsərrüfatları fəaliyyət göstərir. Onların qarşılaşdığı ən böyük çətinliklərdən biri dövrün tələblərini lazımi səviyyədə cavablandırmaq imkanlarının olmamasıdır. Yəni həmin ailə təsərrüfatları keyfiyyətli məhsul istehsal edib, bazarlarda yer tutmağa layiq olsalar da, bazar şərtlərinə cavab vermədiklərinə görə yalnız məhdud sayda alıcı cəlb edə bilirdilər. “ABAD” mərkəzlərinin yaradılmasında məqsəd bu istiqamətdə ailələrə dəstək olmaqdır.

“ABAD”çıların coğrafi əraziləri Bakı, Astara, Balakən və Gədəbəydir. Gələcəkdə digər bölgələrdə də “ABAD” mərkəzlərinin fəaliyyət göstərəcəyi nəzərdə tutulur. “ABAD” öz fəaliyyətini genişləndirməyi qarşısına məqsəd qoyub. İki regionun (Masallı və Balakən) pilot seçilməsi “ABAD” təcrübəsinin ilk dəfə tətbiq olunmasından irəli gəlirdi.

O da məlumdur ki, “ABAD” publik hüquqi şəxsin fəaliyyətinin prioritet istiqamətlərindən biri də dekorativ-tətbiqi xalq sənətkarlığıdır. Dövlətimizin başçısı İlham Əliyevin yazının əvvəlindəki fikirlərinə istinad etsək, ölkəmizə turistlərin axını “ABAD” sənətkarlıq mərkəzlərinin fəaliyyətinə də öz müsbət təsirini göstərəcək. İçərişəhərdə, Heydər Əliyev Beynəlxalq Aeroportunda “ABAD” sənətkarlıq mərkəzi fəaliyyət göstərir. Bu yerlər turistlərin, eyni zamanda, ölkə əhalisinin daha çox olduğu yerlərdir.

Təbii ki, atılan bu addımlar “ABAD” ailəsinin hər bir üzvünün sosial müdafiəsinin gücləndirilməsinə, ailə büdcəsinin zənginləşməsinə öz müsbət təsirini göstərir. Vətəndaş amilinə verilən dəyərdən, eyni zamanda, yeniliyin, təkmilləşmənin prioritetliyindən irəli gələn bu addımlar ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlərdə də yüksək dəyərləndirilir. Bu günlərdə Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən BMT-nin Dövlət Xidmətləri Forumunda ABAD layihəsinə xüsusi diqqət yönəldildi. “ASAN”ın uğur hekayəsinin davamı olaraq “ABAD” adı altında digər sosialyönümlü xidmətin fəaliyyətə başladığını xatırladan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bildirmişdir ki, “ABAD” Azərbaycanın regionlarında kiçik ailə təsərrüfatı bizneslərinə yardım etmək və kiçik sahibkarlığı inkişaf etdirmək məqsədini daşıyan publik hüquqi şəxsdir. Bu layihənin reallaşmasında məqsəd ölkənin sosial və iqtisadi inkişafına vətəndaşların daha fəal və yaradıcı şəkildə cəlb edilməsi, 400-ə yaxın üzvü olan “ABAD”ın regionlarda işsizlik məsələsinin həlli üçün mühüm bir vasitəyə çevrilməsidir.

Daim ilklərə imza atan Azərbaycan “ASAN xidmət”, “ABAD”, “DOST” layihələri ilə dünyaya səs salır. Səmərəlilik, şəffaflıq, rahatlıq və innovasiya prinsiplərinə əsaslanan ən yüksək xidmət atılan addımların əsas mahiyyətini təşkil edir.

Yeganə Əliyeva,
*“İki sahil”*

# Ali Baş Komandanın tapşırığına əsasən hərbi hissələr yoxlanılır



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun hərbi hissələrinin döyüş qabiliyyəti, silah və hərbi texnikasının vəziyyəti, eləcə də onların döyüşə hazırolma səviyyəsi yoxlanılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 16-da hərbi hissələrdən birində olan nazirliyin rəhbərliyi burada ucaldılan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

Sonra Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi hissədə şəxsi heyətin döyüş hazırlığını, mənəvi-psixoloji durumunu yoxlayıb, sosial-məişət şəraiti ilə tanış olub və bu istiqamətdə qarşıda duran tapşırıqları bir daha vəzifəli şəxslərə çatdırıb.

Müdafiə naziri qərargah binası, döyüş texnikaları üçün saxlanclar, silah-sursat anbarı, avtomobil parkı, tibb məntəqəsi, əsgər yataqxanası, yeməkxana, hamam-camaşırxana kompleksi, digər inzibati və xidməti obyektlərə baxış keçirib, eləcə də qoşunların döyüşə hazırolma səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

*Əli Həsənov:*

# Əminik ki, dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək

"Keşikçi qala" sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a açıqlama verib. Açıqlamada deyilir:

-İyulun 14-də "Keşikçi qala" sərhəd məntəqəsində bir qrup Gürcüstan vətəndaşı tərəfindən Azərbaycanın sərhəd növbətçi dəstəsinə qarşı insident törədilib. Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində insident aradan qaldırılıb və ərazidə təhlükəsizlik təmin edilib.

Qeyd etməliyik ki, ümumiyyətlə, son aylar ərzində Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz. Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var. Müzakirələrdə bu qüvvələrin kimliyi barədə də müəyyən fikirlər səsləndirilir.

Şübhəsiz, Azərbaycan sərhədçilərinə qarşı törədilən son təxribat dövlətlər arasındakı münasibətlərə birbaşa zərbə vurmaq məqsədi daşıyır və ona görə də hər iki ölkənin müvafiq qurumları ciddi araşdırmalar aparmalı, bu təxribatı törədən qüvvələri müəyyən edərək onlara qarşı təsirli tədbirlər görməli idilər. Artıq Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunub, ondan məsələ ilə bağlı müvafiq izahat istənilib. Gürcüstan Xarici İşlər Nazirliyi də hadisəni pisləyən açıqlama ilə çıxış edib və bu istiqamətdə ciddi araşdırmalar apararaq günahkarların məsuliyyətə cəlb ediləcəyinə söz verib.



Əlbəttə, biz əminik ki, Azərbaycan və gürcü xalqları bundan sonra da belə məqamlarda təmkinlə, müdrikcəsinə davranaraq emosiyalara meydan verməyəcək, müvafiq rəsmi instansiyalar isə prinsipial şəkildə bu hadisələrin törədilməsində, iki dost ölkə arasında münasibətlərin gərginləşdirilməsində maraqlı olan qüvvələri, şəxsləri aşkarlayaraq cəzalandırılmasını təmin edəcəklər. Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilməsinə imkan vermək olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır.

Bununla yanaşı, təəssüflə qeyd edilməlidir ki, baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verir. Həmçinin istər Gürcüstanda, istərsə də Azərbaycanda əsasən xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışırlar. Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı "beşinci kolon"un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda məhz belə halları nəzərdə tuturuq.

Qafqazda yeni münaqişə ocağı yaratmaq istəyənlərin diplomatik münasibətləri pozmaq, silaha sarılmaq kimi təxribatçı bəyanatları artıq xeyli vaxtdır ki, eşidilməkdədir. Məqsəd, əlbəttə ki, Cənubi Qafqazda yeni münaqişə ocağı alovlandırmaq yolu ilə öz ambisiyalarını Azərbaycana və Gürcüstana qəbul etdirməkdən ibarətdir. Bunun üçün onlar bir tərəfdən Gürcüstanda daxili siyasi çəkişmələri qızışdırmağa, o biri tərəfdən Azərbaycanda daxili radikal qrupların bu ölkədəki proseslərlə bağlı təxribatçı çağırışlarını təşkil etməklə iki dost ölkə arasında milli-vətəndaş ehtiraslarını qızışdırmaq və bu fonda qarşıdurma yaratmağa can atırlar. Lakin onlara 2015-ci ildə Türkiyə ilə Rusiya arasında az qala qarşıdurmaya səbəb olmuş təyyarə insidentini xatırlatmaqla böyük diplomatik qalmaqaldan tərəflərin necə müdrikcəsinə çıxması nümunəsini xatırlatmaq istərdik. Həmin dövrdə də hər iki tərəfdə münasibətləri hərb meydanında ayırd etməyə çağırışlar olunurdu. Lakin Moskva və Ankara təxribata getmədilər, məsələnin kökünü araşdırdılar, günahkarlar tapıldı və ciddi fəsadlar vəd edən insident aradan qaldırıldı.

Buna görə də Azərbaycan və Gürcüstan vətəndaşları qızışdırıcı çağırışlara uymamalıdırlar. İndi emosional çağırışlar, impulsiv davranış deyil, təmkin və müdriklik nümayiş etdirməyin zamanıdır.

Azərbaycan sərhədlərinin demarkasiya və delimitasiyası ilə bağlı müzakirələr yalnız Gürcüstanla aparılmır. Tarixə nəzər salsaq görərik ki, bu məsələdə insident yaşanan yeganə sərhəd xətti də son hadisənin baş verdiyi "Şəmkir" sərhəd dəstəsinin ərazisi olmayıb. Amma Azərbaycan ictimaiyyəti onu da çox gözəl bilir ki, mübahisələr, insidentlər zamanı bizim diplomatlarımız və sərhədçilərimiz bəzən ağır, yorucu görünən müzakirələrdə heç vaxt təmkinlərini itirməyiblər, milli maraqlarımızı əzmlə, peşəkarlıqla qoruyublar, Azərbaycanın haqlı mövqeyindən zərrə qədər də geri addım atmayıblar və bundan sonra da belə olacaq.

Müdrik gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin çox dərin tarixi kökləri var, indiyə qədər bu xalqları qarşı-qarşıya qoymaq, ədavətə sövq etmək kimsəyə müyəssər olmayıb. Münasibətlərimizin tarixi təcrübəsi göstərir ki, bizim talelərimiz də xeyli dərəcədə oxşar və bir-birinə bağlıdır. Bu tarixi təcrübə bizi qarşı duran tərəflər deyil, tərəfdaş olmağı, müstəqilliyimizi birlikdə qorumağı, sivil dünyaya birlikdə inteqrasiya etməyi öyrədir. Biz iqtisadi sahədə uğurlu əməkdaşlıq nümunəsini ortaya qoymaqla, hər iki ölkəyə böyük dividendlər gətirən mühüm enerji və nəqliyyat layihələrini reallaşdırmaqla fəal tərəfdaşlığın ən bariz nümunəsini bütün dünyaya nümayiş etdirmişik. Ölkələrimiz üçün taleyüklü məqamlarda dost dəstəyinin, bu dostluğa sadiqliyin hansı anlama gəldiyini əməli işimizlə göstərmişik. Əminik ki, bundan sonra da dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək. Radikal mövqe tutaraq xalqları, dövlətləri təxribata çəkmək, bir-birinə qarşı qoymaq meylləri müdriklik, əsrlərin sınağından çıxmış qarşılıqlı etimad mühiti qarşısında məğlub olacaq və regionumuzun yeni reallıqlarını unudaraq orta əsrlərin xiffətini çəkənlərin ekstremist təşəbbüsləri iflasa uğrayacaq.

## *Çingiz Hüseynzadə:* Əminik ki, Azərbaycan idmançıları Avropa Gənclər Olimpiya Festivalında uğurla çıxış edəcəklər



Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalında Azərbaycan komandası ilk dəfə tam heyətlə iştirak edəcək. Komandamızın hazırlığı yüksək səviyyədədir. Çalışacağıq ki, komanda hesabında ilk onluğa daxil olaq. Əminik ki, Azərbaycan idmançıları festivalda uğurla çıxış edəcəklər.

Bu sözləri Azərbaycan Milli Olimpiya Komitəsinin birinci vitse-prezidenti Çingiz Hüseynzadə jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Olimpiya festivalının proqramına ilk dəfə güləş yarışları salınıb. Bu da komandamızın ümumi hesabda uğur qazanması üçün əlverişli imkandır. Medal gözləntiləri əsasən güləşçilərimizdən və cüdoçularımızdan olsa da, atletika və digər idman növlərində də medallar ola bilər.

## YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva Argentina Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iyulun 16-da Argentina Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella ilə partiyanın İcra katibliyində görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva Yeni Azərbaycan Partiyası haqqında məlumat verərək, partiyanın beynəlxalq əlaqələrinin coğrafiyasının sürətlə genişləndiyini, bu baxımdan Latın Amerikası regionunun aparıcı dövlətlərindən olan Argentinanın maraq kəsb etdiyini vurğulayıb.

Səfir Serxio Osvaldo Perez Qunella Argentina ilə Azərbaycan arasında müxtəlif sferalarda, o cümlədən siyasi sahədə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib.

Qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

## PİTER TEYS: Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri mədəniyyətlərarası dialoqu möhkəmləndirən mühüm təşəbbüsdür



Azərbaycanda keçirilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri mədəniyyətlərarası və dinlərarası dialoqu möhkəmləndirən mühüm təşəbbüsdür.

Bu fikri AZƏRTAC-a müsahibəsində Beynəlxalq Multikulturalizm Yay Məktəbinin açılış mərasimində iştirak edən amerikalı jurnalist, politoloq Piter Teys deyib.

Piter Teys bildirib ki, müxtəlif qitələrdə yaşayan, fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar arasında fikir mübadiləsi aparmaq üçün müsbət platforma yaradan Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri böyük önəm kəsb edir. Amerikalı jurnalist Bakı şəhərinin belə tədbirlərin yüksək səviyyədə təşkil edilməsi baxımından ideal məkan olduğunu söyləyib. O əlavə edib ki, Yay və Qış məktəbləri dünyanın bir çox ölkələrindən gənclərin bir araya gələrək mədəniyyətlərarası və dinlərarası dialoq naminə fikir mübadiləsi aparmaları baxımından böyük əhəmiyyət kəsb etməklə yanaşı, həm də dünya ictimaiyyətinin Azərbaycan həqiqətləri barədə məlumatlandırılması üçün gözəl imkandır.

Politoloq Azərbaycanın sülhün, dinlərarası harmoniyanın və mədəniyyətlərarası dialoqun sədaqətli tərəfdaşı olduğunu vurğulayıb. O qeyd edib ki, Azərbaycan son illərdə böyük nailiyyətlər əldə edib. Bu nailiyyətlər ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində mümkün olub.

## ATƏŞKƏS REJİMİ POZULUB



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

## MDB ÖLKƏLƏRİNƏ 608 MİLYONDAN ÇOX MƏHSUL İXRAC EDİLİB




Bu ilin yanvar-iyun aylarında Azərbaycandan MDB ölkələrinə 608 milyon 662 min ABŞ dolları dəyərində məhsul ixrac edilib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, bu, ötən ilin eyni dövründəki göstəriciyə nisbətən 60 milyon 694 min dollar çoxdur.

Altı ayda Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulun dəyəri isə 1 milyard 518 milyon 421 min dollar olub.

## AZƏRBAYCANLA ƏFQANISTANIN TİCARƏT DÖVRİYYƏSİ 37 FAİZ ARTIB

2018-ci ildə Azərbaycanla Əfqanıstanın ticarət dövriyyəsi 37 faiz artıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev Əfqanıstan İslam Respublikasının Maliyyə naziri, Prezidentin Baş Müşaviri Məhəmməd Humayun Qayuminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Nazir Azərbaycanın Əfqanıstanla ikitərəfli əməkdaşlığa önəm verdiyini, əlaqələrin genişlənməsində dövlət başçılarının siyasi iradəsini, ölkə rəhbərləri arasında keçirilən görüşlərin, aparılan danışıqların mühüm əhəmiyyətini vurğulayıb.

Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən olan ticarət əlaqələri barədə danışan Ş.Mustafayev bildirib ki, 2018-ci ildə iki ölkənin ticarət dövriyyəsi 37 faiz artıb. Artım tendensiyası 2019-cu ildə də davam edir.

Azərbaycanın əlverişli iqtisadi-coğrafi mövqedə, nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini qeyd edən nazir Əfqanıstanın ölkəmizin tranzit potensialından, xüsusilə Lapis-Lazuli nəqliyyat dəhlizindən daha geniş istifadə imkanlarını vurğulayıb.

Əməkdaşlığın inkişafı perspektivlərinə gəlincə Ş.Mustafayev enerji, sənaye, kənd təsərrüfatı, ticarət və investisiya, kiçik və orta sahibkarlıq, İKT, humanitar və sair sahələrdə potensialı qeyd edib.

# Novruz Məmmədov Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 16-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərindən danışan Baş Nazir Novruz Məmmədov ölkələrimiz arasında bir çox istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində yaxşı əlaqələrin olduğunu bildirərək deyib: "Ölkələrimiz və xalqlarımız arasındakı dostluq və tərəfdaşlıq münasibətləri həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər, aparılan danışıqlar sayəsində daha da möhkəmlənib. Əminəm ki, sizin səfəriniz də ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə öz müsbət töhfəsini verəcək".

İki ölkə arasındakı siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Novruz Məmmədov cari ilin iyununda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının XIV Zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına etdiyi səfəri məmnunluqla xatırladıb. Baş Nazir iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Baş Nazir Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyə görə Səudiyyə Ərəbistanına minnətdarlığını ifadə edib.

Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani Səudiyyə Ərəbistanının bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb. Cari ilin əvvəlində iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandığını xatırladan nazir Valid bin Mohammad Al-Samaani iyulun 15-də isə Əməkdaşlıq Proqramının imzalandığını söyləyib.

Qonaq Azərbaycanın ədliyyə sahəsində tətbiq etdiyi informasiya resursları, o cümlədən "Elektron məhkəmə" informasiya sistemi ilə tanış olduqlarını bildirərək deyib: "Ölkələrimiz arasında məhkəmə-hüquq sistemi və qanunvericilik sahələrində əməkdaşlıq üçün yaxşı imkanlar var. Səfərimizin məqsədi də müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə töhfə verməkdir".

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

*Amina Mohammed:*

# Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanın atdığı addımlar təqdirəlayiqdir

**ABŞ-ın Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT Baş katibinin birinci müavini xanım Amina Mohammedlə görüşüb.**



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Baş Nazirin müavini qlobal problemlərin həllində iştiraka töhfə verməyə yüksək səy göstərən, habelə beynəlxalq tərəfdaşlığa əhəmiyyət verən ölkə olaraq Azərbaycanın qarşıdakı illərdə də bu cür əməkdaşlıq əlaqələrinin yaradılmasını və möhkəmləndirilməsini əsas prioritet kimi müəyyənləşdirdiyini bildirib. 1992-ci ildə BMT-yə üzv olduqdan sonra təşkilatın müxtəlif qurumları ilə səmərəli əməkdaşlığın davam etdiyini, bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını diqqətə çatdıran Baş Nazirin müavini ölkəmizin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyə qoşulması ilə BMT ilə əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb. O, Azərbaycan Respublikasının Minillik İnkişaf Məqsədlərinə nail olunmasında qazandığı təcrübəyə istinad edərək Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda Gündəliyə bir qlobal inkişaf proqramı kimi geniş maraq var və bütün tərəfdaşlar DİM-lərin ölkə üçün uyğunluğunu qəbul edirlər. Bütün dövlət qurumları DİM-lərin öz fəaliyyət istiqamətlərinə inteqrasiya olunmasına dəstək göstərməyə hazırdır. Bu baxımdan hökumət milli prioritetlərə uyğunlaşdırılmış DİM-lərə nail olunması üzrə əlaqələndirici qismində çıxış etməklə, bütün maraqlı tərəfdaşların Gündəliyin səmərəli icrasına yönəldilmiş təşəbbüslərinə əhatəli dəstəyi təmin edəcək. Eyni zamanda, yeni Azərbaycan 2030 strategiyasının hazırlanması və DİM-lərin bu strategiyaya inteqrasiyası nəzərdə tutulub.

Görüşdə Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu və 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü, bütün bunların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında çətinliklər yaratdığı diqqətə çatdırılıb. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyi vurğulanıb.

Xanım Amina Mohammed Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün yüksək səviyyəli Milli Əlaqələndirmə qurumunun yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını yüksək qiymətləndirib. O, DİM-lərin ümumilikdə icrası istiqamətində ölkə tərəfindən atılan addımların təqdirəlayiq olduğunu söyləyib. Dayanıqlı inkişafa nail olunmasında sülh və sülhpərvər institutların yaradılmasının əhəmiyyətini vurğulayan Baş katibin müavini Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu bildirib.

Baş Nazirin müavini Əli Əhmədov 2020-ci ildə keçirilməsi planlaşdırılan Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda iştirak etmək üçün Baş katibin müavinini Bakıya səfərə dəvət edib. Dəvət xanım Amina Mohammed tərəfindən müsbət qarşılanaraq təsdiq edilib.

# Azərbaycan regionda və MDB məkanında ilk ölkə kimi ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabat təqdim edib










**İyulun 15-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı uğurla təqdim olunub və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək, son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi barədə ətraflı məlumat verib. Eyni zamanda, nümayəndə heyətinin rəhbəri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 saylı məlum qətnamələrin indiyədək yerinə yetirilmədiyi bir daha Forum iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, BMT-nin müəyyən etdiyi "İnsanların hüquq və imkanlarının genişləndirilməsi və onların inklüzivliyinin və bərabərliyinin təmin edilməsi" tematik mövzusuna uyğun 4-cü "Keyfiyyətli təhsil", 8-ci "Layiqli əmək və iqtisadi artım", 10-cu "Bərabərsizliyin azaldılması", 13-cü "İqlim dəyişikliyinə qarşı mübarizə", 16-cı "Sülh, ədalət və səmərəli institutlar" və hər il nəzərdən keçirilən 17-ci "Məqsədlər üçün tərəfdaşlıq" məqsədləri üzrə təqdim olunan ikinci milli hesabat İqtisadiyyat Nazirliyi tərəfindən yerli ekspert və Dayanıqlı İnkişaf Məqsədləri üzrə yaradılmış işçi qrupların iştirakı ilə aidiyyəti dövlət qurumlarının məlumatları nəzərə alınmaqla hazırlanıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyev, Ədliyyə nazirinin müavini Toğrul Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibi Hüseyn Hüseynovun təmsil olunduğu nümayəndə heyəti ilə BMT-nin bir sıra yüksək səviyyəli nümayəndələri və digər üzv dövlətlərin nümayəndə heyətləri arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, ölkəmiz BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş, bu məqsədlərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Hazırda Azərbaycan regionda və MDB məkanında ilk, ümumiyyətlə isə dünyada ikinci hesabatı təqdim edən 14 ölkədən biridir. Hesabatla BMT-nin rəsmi internet səhifəsindən (www.sustainabledevelopment.un.org) tanış olmaq olar.

# Bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar



**Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov Keşikçidağ mağaralar kompleksi ərazisində bir qrup şəxs tərəfindən Azərbaycan sərhədçilərinə qarşı törədilmiş insidentlə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

*-Məlum olduğu kimi, iki gün əvvəl bir qrup şəxs Keşikçidağ mağaralar kompleksi ərazisində Gürcüstandan Azərbaycan istiqamətində sərhədi pozaraq Azərbaycan sərhədçilərinə hücum edib, onları nalayiq ifadələrlə təhqir edib və güc tətbiq edərək silah-sursatlarını əllərindən alıblar. Bununla bağlı nə söyləyə bilərsiniz?*

-Bəli, təəssüflər olsun ki, iyulun 14-də bir qrup şəxs tərəfindən birbaşa Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə yönəlmiş təxribat xarakterli, dövlət sərhədinin keşiyində duran sərhəd naryadına qarşı törədilən cinayət əməli baş verib. Güman edirəm ki, bu insidentin Gürcüstan Hökuməti ilə əlaqəsi yoxdur, lakin Gürcüstan sərhədçiləri öz hərəkətsizliyi ilə bu təxribatçıların və cinayət ünsürlərinin Azərbaycan Respublikası ərazisinə buraxılmasına görə məsuliyyət daşıyırlar. Sözsüz ki, bu kimi təxribatlar və insidentlər iki ölkə arasında təşəkkül tapmış dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinə zərbə vurur. Bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar.

*-Bu günə qədər Keşikçidağ mağaralar kompleksi ilə bağlı mediada müxtəlif fikirlər səsləndirilir. Bu barədə danışmağınızı xahiş edirik.*

-Dövlət sərhədinin delimitasiyası üçün hər hansı dini-mədəni və sair qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz. Keşikçidağ mağaralar kompleksini əhatə edən sahə bütün mövcud hüquqi sənədlər, faktiki istifadə vəziyyətinə görə hər zaman Azərbaycan ərazilərinə aid olub. Bu, eyni zamanda, hələ 1963-cü ildə Gürcüstan SSR Ali Soveti tərəfindən təsdiq edilmiş topoqrafik növbəti xəritələrdə öz əksini tapıb və SSRİ-nin süqutuna qədər tərəflər arasında inzibati sərhəd kimi qəbul edilib. Buna görə də hüquqi baxımdan qeyd edilən sahə ilə bağlı hər hansı mübahisədən və ya iddiadan söhbət gedə bilməz. Eyni zamanda, bu sahə də razılaşdırılmayan digər sahələr kimi delimitasiya çərçivəsində razılaşdırılmalı, iki dövlət arasında imzalanacaq dövlət sərhədinə dair müqavilədə təsbit olunmalıdır.

*-Növbəti mərhələdə komissiyalar çərçivəsində hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?*

-Təəssüf hissi ilə qeyd etməliyəm ki, Gürcüstan və Azərbaycan komissiyalarının işində uzun fasilələr olub. Bu fasilələrə səbəb partnyorların tez-tez dəyişməsidir. Azərbaycan tərəfi komissiyaların iclaslarının davamlı və ardıcıl olması üçün səylər göstərib. Bu il mayın 23-24-də Bakı şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə növbəti 12-ci iclasda komissiyaların işçi qrupları səviyyəsində dövlət sərhəd xəttinin razılaşdırılmamış sahələrinə yerində baxış və müvafiq ölçmə işlərinin aparılması barədə razılıq əldə olunub və tərəfimizdən bu işlərin cari ilin avqust ayının ikinci yarısında həyata keçirilməsi təklif edilib. Həmin görüşün nəticələrinə görə, komissiyaların növbəti iclasının Gürcüstanda keçirilməsi nəzərdə tutulur.

# “Azərenerji” ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər” mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb










**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və “Azərenerji” ASC-nin birgə təşkil etdikləri “Azərenerji” ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər” mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıb.**

Bu barədə AZƏRTAC-a fonddan məlumat verilib.

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, “Azərenerji” ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər. Tədbirin əvvəlində “Azərenerji” ASC-nin “Reabilitasiya proqramı” çərçivəsində görülmüş işlərdən bəhs edən qısa videoçarx nümayiş olunub.

“Azərenerji” ASC prezidentinin ümumi işlər üzrə müşaviri Vüqar Əliyev bildirib ki, ötən ilin payızından başlayaraq “Azərenerji” ASC tərəfindən “Reabilitasiya Proqramı”na start verilib və Mingəçevirdə yerləşən “Azərbaycan” İstilik Elektrik Stansiyası da daxil olmaqla ölkədəki 12 elektrik stansiyasında, sistem əhəmiyyətli 17 yarımstansiyada 100-dən artıq təyinat üzrə yenidənqurma, təmir və bərpa işləri aparılır. O deyib: “35 elektrik stansiyası və 150 yarımstansiyanı əhatə edəcək SCADA Dispetçer İdarəetmə Sistemi yenidən qurulur, Azərbaycan enerji sistemində qəza rejimlərinin məhdudlaşdırılması və tam ləğvini mümkün etmək üçün mikroprosessor texnikasının tətbiqi, həmçinin modernləşdirilməsi ilə yeni əks qəza avtomatika kompleksləri yerinə yetirilir”.

Vüqar Əliyev, həmçinin bildirib ki, 2018-2021-ci illəri əhatə edən “Reabilitasiya proqramı”nın həyata keçirilməsində əsas məqsəd itirilmiş gücləri bərpa etmək, enerjisistemin etibarlığını və dayanaqlığını təmin edərək inkişafa nail olmaqdır: “Reabilitasiya proqramı çərçivəsində 800 MVt-dan artıq “itirilmiş” gücün bərpası planlaşdırılıb”.

“Azərenerji ASC” prezidentinin müşaviri görülən işlərin ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında jurnalistlərin rolunu da xüsusi vurğulayıb. O, təşkil olunmuş müsabiqənin əhəmiyyətini yüksək qiymətləndirdiyini bildirib.

Vüqar Səfərli media nümayəndələrini Milli Mətbuatın yaranmasının 144-cü ildönümü münasibətilə təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb. Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Azərbaycanın davamlı və sabit inkişafında energetika sisteminin rolunu xüsusi qeyd edən Vüqar Səfərli bir ilə yaxın müddətdə bu sahədə mühüm islahatların aparıldığını, enerjisistemin etibarlığının xeyli dərəcədə yüksəldiyini bildirib. İcraçı direktor əlavə edib ki, “Azərenerji” ASC ilə birgə keçirilən müsabiqənin əsas məqsədi Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar reallaşdırılan tədbirlərin ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

Vüqar Səfərli bildirib ki, 2019-cu il mayın 10-dan iyulun 5-dək davam edən birgə fərdi jurnalist yazıları müsabiqəsinə 25 KİV-dən 35 yazı təqdim edilib, yazılar üç nəfər ekspert tərəfindən qiymətləndirilib. İcraçı direktor yekun nəticələrə əsasən, yazı müəlliflərindən 6 nəfərinin əsas, 10 nəfərinin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Sonra qaliblərə fəxri diplom və pul mükafatları təqdim olunub.

## XİN: Polşa vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Polşa Respublikasının vətəndaşı, həmin ölkənin Milli Olimpiya Komitəsinin vitse-prezidenti Tomaş Paremba Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı”ndan çıxarılmasını xahiş edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda Tomaş Paremba Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə və suverenliyinə, eləcə də ölkənin qanunlarına hörmət etdiyini bildirib. O, işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını qeyd edib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycanı 122 idmançı təmsil edəcək

İyulun 21-27-də Bakıda keçiriləcək XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycanı 122 idmançı təmsil edəcək.

Bunu iyulun 16-da Milli Olimpiya Komitəsinin (MOK) idman şöbəsinin müdiri Həsənağa Rzayev Festivalda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil olan idmançılar və onların məşqçiləri ilə görüşdə deyib.

Nümayəndə heyətinin ümumilikdə 198 nəfərdən ibarət olacağını vurğulayan H.Rzayev qeyd edib ki, festivalda Avropanın 48 ölkəsindən 3900 atlet 135 dəst medal uğrunda yarışacaq.

Avropa Gənclər Yay Olimpiya Festivalında atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

AZƏRTAC “EYOF 2019” XV Avropa Gənclər Olimpiya Festivalının rəsmi media tərəfdaşıdır.

## SOCAR-ın məlumatı

İyulun 15-də saat 18:50 radələrində “Günəşli” yatağındakı 14 saylı dərin dəniz özülündə Elmi-tədqiqat işləri istehsalat sahəsinin operatoru, 1980-ci il təvəllüdlü Vəlixanov Seymur Əlihüseyn oğlu hamamda yıxıldığı vəziyyətdə aşkar edilmiş və vəfat etdiyi müəyyənləşdirilmişdir. İlkin rəyə əsasən, ölüm hadisəsinə baş nahiyyəsinin xəsarəti və beyinə qan sızması səbəb olmuşdur.

Hadisənin başvermə səbəbləri “Azneft” İstehsalat Birliyinin baş direktorunun əmri ilə yaradılmış müvafiq komissiya tərəfindən yerində araşdırılır. Hadisə ilə bağlı əlavə məlumat veriləcəkdir.

# Xarici ticarət sektorunda vəziyyət necədir?

2019-cu ilin birinci yarısında Azərbaycanın xarici ticarət əməliyyatlarının həcmi 16 milyard 994 milyon 658,72 min ABŞ dolları təşkil edib. Xarici ticarətin gömrük statistikasına görə, idxal əməliyyatları üzrə 7 milyard 15 milyon 632,93 min ABŞ dolları, ixrac əməliyyatları üzrə 9 milyard 979 milyon 25,79 min ABŞ dolları ticarət aparılıb və 2 milyard 963 milyon 392,86 min dollar müsbət saldo yaranıb.

Ötən ilin birinci yarısı ilə müqayisədə ixrac 15,2 faiz, idxal 50,6 faiz artıb, müsbət saldo isə 26 faiz azalıb. Yarım ildə ixracın ən yüksək həddi apreldə (2 milyard 605 milyon 407,61 min ABŞ dolları), ən aşağı həddi isə yanvarda (1 milyard 279 milyon 407,14 min ABŞ dolları) müşahidə edilib. İdxala gəlincə, ən yüksək hədd apreldə (1 milyard 425 milyon 757,20 min ABŞ dolları), ən aşağı hədd isə martda (969 milyon 843,97 min ABŞ dolları) qeydə alınıb.

Xarici ticarətdə diqqəti çəkən amil ötən ilin eyni dövrü ilə müqayisədə idxalın ixracdan daha yüksək templə artmasıdır. Nəticədə bu cür artım tempi saldoya da öz təsirini göstərib.

İlk baxışda bu, idxalda şəffaflığın artırılmasının nəticəsi kimi də xarakterizə edilə bilər. Eyni zamanda, dolların manata olan məzənnəsindəki sabitliyin idxalı dəstəkləməsi (xüsusilə də özəl sektor üzrə) də artımda digər səbəblərin axtarılmasına ehtiyac yaratmaya bilərdi, ta ki, idxalın mənbələr üzrə strukturunu nəzərdən keçirməyənə qədər.

Lakin idxalın bu cür strukturuna baxanda məlum olur ki, idxalda artımın səbəbi məhz dövlət sektorundan qaynaqlanır. Belə ki, cari ilin birinci yarısında ümumi idxalın 2 milyard 812 milyon 868,13 min ABŞ dolları dövlət sektorunun, 3 milyard 799 milyon 821,02 min ABŞ dolları özəl sektorun, 402 milyon 943,78 min ABŞ dolları isə fiziki şəxslərin payına düşüb. Bununla da ötən ilin eyni dövrü ilə müqayisədə dövlət sektoru üzrə idxal 3,78 dəfə, özəl sektor üzrə 4,6 faiz, fiziki şəxslər üzrə isə 41,8 faiz artıb.

İdxalda əsas malların siyasında dəyər etibarilə diqqəti çəkən “digərlər” adlanan bölmədədir ki, ötən ilin eyni dövrü (1 milyard 437 milyon 767,02 min ABŞ dolları olmaqla idxalın 30,84 faizi olub) ilə müqayisədə bu bölmə üzrə artım 2,3 dəfə olmaqla (3 milyard 316 milyon 304,52 min ABŞ dolları) idxalın 47,28 faizini təşkil edib. Bundan başqa, nəqliyyat vasitələri və onların hissələrinin idxalı dəyər ifadəsində 37,32 faiz, buğda idxalı 37,23 faiz artıb.

İxraca gəlincə, dövlət sektoru üzrə 3,7 faiz azalma olsa da, özəl sektor üzrə 72,25 faiz artım olub. İxracda dəyərlə ifadədə ən böyük artım pambıq lifinə aiddir. Bu məhsul üzrə artım 2,6 dəfədən çox olmaqla 75 milyon 675,34 min



dollara yüksəlib. Spirtli və spirtsiz məhsulların ixracı da kəskin artıb - 2,2 dəfəyə yaxın. Eyni zamanda, təbii qaz ixracının dəyəri 83,7 faiz artımla 1 milyard 47 milyon 680,8 min ABŞ dolları təşkil edib.

Bununla belə, xam neft və bitumlu minerallardan alınan xam neft məhsulları dəyər baxımından ixracda liderliyini qorumaqdadır. Belə ki, hesabat dövründə bu məhsulların ixracı dəyər ifadəsində 10 faiz artımla 7 milyard 671 milyon 234,27 min ABŞ dolları olub.

Həmçinin meyvə-tərəvəz, çay, pambıq iplik və digər məhsullar da dəyər baxımından ixracda artım nümayiş etdirən məhsullar arasında qərarlaşıblar.

✍ **Ceyhun Piriyev,**
***“İki sahil”***

# “Yay məktəbi”nin 2-ci Oğuz turu gənclər üçün yaddaqalan olub



Oğuz və Lerik rayonlarında Yeni Azərbaycan Partiyasının (YAP) gənclərlə bağlı ən uğurlu layihələrindən olan “Yay məktəbləri” davam edir. Bu layihənin reallaşdırılmasında əsas məqsəd gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə gənclərin görüşlərinin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.



Oğuzda davam edən layihə çərçivəsində gənclər üçün müxtəlif seminarlar, təlimlər, diskussiyalar, interaktiv, intellektual və əyləncəli oyunlar təşkil edilib.



YAP Gənclər Birliyinin təşkil etdiyi “Gənc liderlər” gənc siyasətçilər üçün “Yay məktəbi”nin 2-ci Oğuz turunun 4-cü günündə gənclər ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılan abidəsini ziyarət ediblər. Rayon ərazisində yerləşən muzeylə tanış olublar.



Milli Məclisin deputatı Sona Əliyeva Ümummilli Liderin abidəsini ziyarət edərkən gənclərə Ulu Öndərin ölkəmiz və xalqımız qarşısındakı misilsiz xidmətləri barədə danışıb. Bildirib ki, ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dününənin, bu gününün və sabahının əsasıdır: “Gənclərə diqqət və qayğı ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsas istiqamətini təşkil edib.”

Sonra gənclər arasında “Leadership” təlimi keçirilib. Təlimin moderatoru YAP Səbail rayon təşkilatı GB-nin sədri Riyad Rüstəmli olub.

Müzakirə formatında davam edən seminarda gəncləri maraqlandıran suallar cavablandırılıb.

Günün sonunda gənclər arasında idmanın müxtəlif növləri - futbol, üzgüçülük, stolüstü tennis üzrə yarışlar keçirilib. Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vurulub.

“Yay məktəbi”nin 5-ci günündə isə gənclər üçün YAP Xızı rayon təşkilatı Gənclər Birliyinin sədri İman Ağayevin moderatorluğu ilə “Sağlam həyat tərzi” mövzusunda təlim keçirilib. Təlimdə bildirilib ki, bugünkü gündə gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Bu baxımdan biomüxtəlifliyin tükənməsi, urbanizasiya, stress kimi ciddi problemlərin artdığı bir dövrdə əsrin xəstəlikləri hesab edilən QİÇS (qazanılmış immun çatışmazlığı sindromu), hemofiliya (talassemiya), narkomaniya, alkoqolizm, ürək-damar, xərçəng xəstəlikləri geniş yayılmışdır. Belə bir dövrdə sağlamlıq haqqında biliklərə yiyələnmək və bu biliklərə riayət etmək hər bir gəncin başlıca vəzifələrindən biridir. Sağlam həyat tərzi hər bir yeniyetmənin, gəncin şəxsi seçim yolu və fərdi davranış sistemidir. Vurğulanıb ki, gənc nəslin sağlam böyüməsi üçün onlarda erkən yaşlarından sağlam həyat tərzinə uyğun vərdişlərin formalaşması çox vacibdir.

Sonra gənclərin regionun şəhər və rayonlarına səfərləri təşkil olunub. “Yay məktəbi”nin iştirakçıları regionun tarixi abidələri, muzeyləri və rayonların görməli yerləri ilə tanış olublar.

Axşam saatlarında gənclər arasında istedad gecəsi də təşkil olunub.

Sonda isə “Yay məktəbi”nin iştirakçıları Fəxri fərmanla təltif olunublar.

Bununla da YAP Gənclər Birliyinin təşkil etdiyi “Gənc Liderlər” gənc siyasətçilər üçün “Yay məktəbi”nin 2-ci Oğuz turu başa çatıb.

# Lerikdə “Yay məktəbi” davam edir

## Layihənin 3-cü günündə gənclər müxtəlif mövzularda təlim, tədbir və idman yarışları keçiriblər



**Yeni Azərbaycan Partiyasının (YAP) təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbləri”nin ikinci turu çərçivəsində təlim və tədbirlər iyulun 16-da da davam etdirilib.**



Günün birinci yarısında “İcebreaker” oyunu təşkil olunub.

Sonra “Sosial şəbəkələr: təhlükəsizlik qaydaları” mövzusunda təlim keçirilib.

YAP Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov təlimin mövzusu və faydaları barədə məlumat verib.

Sonra təlimin moderatoru, YAP Nərimanov rayon təşkilatının fəalı Fuad Babayev sosial şəbəkələrdən istifadə qaydaları və təhlükəsizlik məsələləri barədə ətraflı məlumat verib.

Sonda gənclərin sualları cavablandırılıb.

Günün ikinci yarısında isə “Dövlət gənclər siyasətində partiya gənclərinin rolu” mövzusunda müzakirə və təqdimat olub.



Çıxış edən Milli Məclisin deputatı Sevinc Hüseynova dövlət gənclər siyasətinin əsas prinsip və prioritetləri barədə məlumat verib. Deputat bildirib ki, bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

Vurğulanıb ki, Azərbaycanda gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sevindirici hal ondan ibarətdir ki, bu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tez-tez gənclərlə görüşür, onlarla səmimi fikir mübadiləsi aparır.



Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tərkibində Gənclər siyasəti və İdman məsələləri şöbəsinin yaradılması, V çağırış Milli Məclisin tərkibində yeni Gənclər və idman komitəsinin fəaliyyətə başlaması bir daha Azərbaycanda gənclər siyasətinə sistemli və davamlı münasibətin göstərildiyini nümayiş etdirir.

Müzakirələr zamanı diqqətə çatdırılıb ki, bu günə qədər gənclər siyasətinə dair bir sıra proqramlar və qanunlar qəbul olunub. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlamış, onların xaricdə təhsilinə, yaradıcı və elmi fəaliyyətlə məşğul olan gənclərlə yanaşı kütləvi idmanı təbliğ etməklə sağlam gəncliyin formalaşmasına töhfə verməklə çox geniş spektri əhatə edib. Gənclər Fondunun yaradılması, regionlarda və paytaxtda Gənclər evləri şəbəkəsinin işə düşməsi, Azərbaycan Tələbə Kartının ərsəyə gəlməsi, Azərbaycan Gənclər Paytaxtının təsis olunması, eləcə də reallaşdırılan proqramlar gəncliyimizin inkişafına töhfə verməkdədir.



Müzakirələrdən sonra YAP Şəmkir rayon təşkilatının Gənclər Birliyinin sədri Emin İsmayılov dövlət gənclər siyasəti və Şəmkir rayonunda gənclərin fəaliyyəti barədə təqdimatla çıxış edib.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılıb.

Təlim və müzakirələrdən sonra gənclər arasında müxtəlif idman yarışları keçirilib.

Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vurulub.

**Hazırladı: Orxan Vahidoğlu, *“İki sahil”***

*Aydın Hüseynov:*

# Sosial müdafiə sistemində aparılan islahatlar xalqın rifahının daha da yaxşılaşmasına xidmət edir

Azərbaycan regional və qlobal miqyasda gedən proseslərə təsir göstərmək iqtidarında olan güclü aktora çevrilib. Təsadüfi deyil ki, respublikamız regionda qlobal əhəmiyyətli əksər layihələrin moderatoru rolunda çıxış edir. Perspektivlə bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib ki, növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Məqsəd dövlətimizin daha da gücləndirilməsi, xalqın rifah halının daha da yüksəldilməsidir.

Milli Məclisin deputatı Aydın Hüseynov İkisahil.TV-yə müsahibəsində bildirdi ki, Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti demokratik, azad və müstəqil dövlət quruculuğu sahəsində böyük nailiyyətlərlə müşayiət olunur: "Ölkə başçısının uğurlu siyasəti nəticəsində inkişafın Azərbaycan modeli formalaşıb ki, bu da dünya ölkələri üçün nümunədir. 2025-ci ilədək Azərbaycan qarşısına məqsəd qoyub ki, dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxsın. Ölkəmizdə sosial müdafiə sistemində aparılan islahatlar xalqın rifahının daha da yaxşılaşmasına xidmət edir. Bu istiqamətdə ardıcıl addımlar atılır. Əhalinin həssas qrupları ilə bağlı imzalanan Sərəncam və fərmanlar 2 milyona qədər vətəndaşı əhatə edib, 2 milyard manat vəsait ayrılıb. Son Sərəncam və fərmanlar, ümumilikdə, iki paket sənədlər qrupu 2 milyon nəfərə qədər insanın gəlirlərinin artmasına xidmət edəcək. Təkcə minimum əməkhaqqının artırılması 600 min Azərbaycan vətəndaşının güzəranını əhəmiyyətli dərəcədə yüksəldəcək".

A.Hüseynov qeyd etdi ki, ümumiyyətlə, Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafı dinamik xarakter daşıyır: "Davamlı olaraq islahatların həyata keçirilməsi inkişaf proseslərini daha da gücləndirir. Vətəndaşların rifahının daha da yüksəldilməsi, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir. Respublikamızda inklüzivliyin təmin olunması, əhaliyə göstərilən xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması və beləliklə də, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, sosial infrastruktur quruculuğuna getdikcə daha böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Ölkəmizdə 2019-cu ilin əvvəlindən sosial sahədə bilavasitə insanların rifah halının yaxşılaşmasına hədəflənən tədbirlərin reallaşdırılması daha da intensivləşib. Bu sahədə atılacaq addımlar cənab Prezident tərəfindən hələ ötən il müxtəlif tədbirlərdə anons edilib və hazırda vaxtilə verilən vədlərin uğurla reallaşdırılması prosesi gedir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq. Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır".



Aydın Hüseynov qeyd etdi ki, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur: "Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür. Bütövlükdə, 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Azərbaycan dövlətinin yürütdüyü məqsədyönlü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının əyani nümunəsidir".

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Bakı Ali Neft Məktəbində İngiltərə və Şotlandiya futbol komandalarının xeyriyyə oyunu keçirilib




Bakı Ali Neft Məktəbinin stadionunda Bakıda fəaliyyət göstərən transmilli neft şirkətlərinin əməkdaşlarından ibarət İngiltərə və Şotlandiya komandaları arasında xeyriyyə futbol oyunu keçirilib. İngiltərə və Şotlandiya komandaları arasında sayca 13-cü dəfə keçirilən bu oyundan əldə olunan vəsait Azərbaycanda xeyriyyə məqsədi ilə istifadə olunacaq.

Gərgin mübarizə şəraitində keçən oyunda İngiltərə komandası 2:1 hesabı ilə qalib gəlib.

Bu, ali məktəbin stadionunda keçirilən növbəti peşəkar oyundur.

Qeyd edək ki, Bakı Ali Neft Məktəbinin Bakının Səbail rayonunun Bibiheybət qəsəbəsində yerləşən kampusunda 1000 yerlik süni örtüklü müasir standartlara cavab verən stadionu fəaliyyət göstərir.

Stadion idman yarışlarının keçirilməsi üçün bütün texniki imkanlarla təchiz olunub.

# Biləsuvarda məcburi köçkünlərin içməli su təchizatı yaxşılaşdırılır

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məişət problemlərinin həlli, o cümlədən içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı konkret tədbirlər nəzərdə tutulur.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Biləsuvarda məskunlaşmış Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün salınmış qəsəbələrin içməli su təchizatının yaxşılaşdırılması layihəsi icra edilir. 2019-cu ilin dövlət investisiya layihəsinə əsasən məcburi köçkünlərin yaşadığı 7-11-ci qəsəbələrin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə su mənbəyindən 400 mm diametrli polietilen borularla 15 km uzunluğunda magistral su kəməri çəkilir. Cari ilin may ayında icrasına başlanılmış layihə üzrə işlərin artıq 90 faizindən çoxu yekunlaşıb. Magistral kəmərin inşası iyul ayında başa çatdırılacaq və mövcud şəbəkəyə birləşmələr veriləcək.





Yeni kəmərin istismara verilməsi ilə qəzalı vəziyyətdə olan köhnə polad magistral xətt ləğv olunacaq. Ümumilikdə yeni layihənin icrasından 5 qəsəbədə yaşayan 7 min məcburi köçkün faydalanacaq.

Qeyd edək ki, 4500-dək ailənin yaşadığı və 11 qəsəbədən ibarət Cəbrayıl məcburi köçkün şəhərciyində içməli su layihəsi mərhələlərlə həyata keçirilir. 2011-ci ildə icra olunmuş layihə 6 qəsəbəni əhatə edib. Layihə çərçivəsində məcburi köçkünləri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə subartezian quyuları qazılıb. Quyu zonasında tutumu 4000 kubmetr olan 2 su anbarı tikilib. Layihə çərçivəsində 12 km magistral, 89 km uzunluğunda qəsəbədaxili su xətləri çəkilib, 2600-dən çox evə birləşmə verilib. Dayanıqlı su təchizatının aparılması üçün 6 qəsəbənin hər birində tutumu 100 kubmetr olan su anbarı, nasosxana inşa edilib, 18 ədəd nasos və 6 ədəd 63 KVT-lıq transformator quraşdırılıb. Növbəti mərhələdə 11 qəsəbədə bütün evlər sayğacla təmin olunub.

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***

# *Azər Həsrət:* Azərbaycanda müstəqil media formalaşıb



**Media eksperti, Əməkdar jurnalist Azər Həsrət 144 illik tarixi olan Azərbaycan mətbuatının keçdiyi yola və bugünkü durumuna nəzər salaraq bildirdi ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi.**

Hələ Azərbaycan Xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etdi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Bu gün Azərbaycanda müasir dünya standartlarına cavab verən müstəqil media formalaşmaqdadır.

A.Həsrət qeyd etdi ki, 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən mətbuat üzərində dövlət tənzimlənməsini nəzərdə tutan bütün mexanizmlər, o cümlədən senzura ləğv olundu. Azərbaycan mətbuatının dövlət nəşriyyatına olan borcları əvvəlcə üç il müddətində donduruldu, sonra isə ləğv olundu. Çox sevindirici haldır ki, bu məqsədyönlü işlər ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün qəzet, jurnal, informasiya agentliyinin təsis edilməsi üçün münbit şərait var. Ölkəmizdə kütləvi informasiya vasitələrinin normal fəaliyyət göstərməsi üçün zəruri qanunvericilik bazası yaradılıb. Jurnalistlərin əməyi yüksək qiymətləndirilir, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkili, onlara birdəfəlik yardımların göstərilməsi, "Əməkdar jurnalist" adının bərpa olunması buna bariz nümunədir. Bu gün Prezident İlham Əliyev söz və fikir azadlığına, mətbuatın inkişafına, bu sahədə yaranan problemlərin həllinə daim xüsusi diqqət, qayğı göstərir. Məhz bu diqqət və qayğıdan irəli gəlir ki, hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları fəaliyyət göstərir, onlar vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Mətbuatın, eləcə də digər media vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində atılan addımlar isə ölkəmizdə kütləvi informasiya vasitələrinin müstəqilliyini daha möhkəm özüllər üzərində bərqərar edir. Real həqiqətdir ki, Azərbaycan dövlətinin artan imkanları milli mətbuatın inkişafı yolunda çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə geniş şərait yaradıb. Hazırda mətbuatda müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması daha münbit şəraitin yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyətinin qarşısında duran mühüm vəzifələrdən biridir.

Azər Həsrət diqqətə çatdırdı ki, jurnalistlərə göstərilən diqqəti yüksək dəyərləndirən KİV nümayəndələri təsadüfi deyil ki, dəfələrlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "Jurnalistlərin dostu" mükafatına ən layiqli namizəd hesab ediblər.

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Laprol 3003 olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11132AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 15.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsini 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
Tələb olunmur

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
Əlaqələndirici şəxs:
Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Qayka açarlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11115AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi;

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsini 45 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
Tələb olunmur

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
Əlaqələndirici şəxs:
Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

# Sərmayə reytinqinə görə MDB məkanında ilk üçlükdəyik

## AZƏRBAYCAN SƏRMAYƏ QOYULUŞU ÜÇÜN DÜNYADA ƏN CƏLBEDİCİ ÖLKƏ KİMİ DƏYƏRLƏNDİRİLİR

**Azərbaycanın iqtisadi inkişafında xarici investisiyaların cəlbi, qabaqcıl texnologiyaların tətbiqi və müasir idarəetmə təcrübəsindən geniş istifadə önəmli faktordur. Bu reallıq həm də ondan qaynaqlanır ki, ölkəmizdə siyasi və makroiqtisadi sabitlik mövcuddur, investorların hüquqları etibarlı qorunur, əlverişli coğrafi mövqeyə sahibik, zəngin təbii ehtiyatlarımız və yüksək ixtisaslı işçi qüvvəmiz var. Bütün bu önəmli amillər Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirib.**



Qeyd edək ki, son 10 ildə Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 100-dən çox müqavilə imzalanıb. Təkcə 2018- ci ildə iqtisadiyyatımıza 15 milyard dollar sərmayə qoyulub ki, onun da yarıdan çoxu qeyri-neft sektoruna yönəldilib.

Bu, bir faktdır ki, Azərbaycan bu gün dünya miqyasında sərmayə qoyuluşu üçün çox cəlbedici ölkəyə çevrilib. Ona görə ki, həm iqtisadi və siyasi sabitlik, həm də zəngin valyuta ehtiyatlarımız, o cümlədən həyata keçirilən önəmli layihələrin kommersiya cəlbediciliyi xarici sərmayənin ölkəmizə cəlb edilməsini daha da sürətləndirir.

Bu gün ölkəmizin qeyri-neft sektoruna birbaşa xarici sərmayələr üzrə ən böyük investorlar Türkiyə, ABŞ, Rusiya, Yaponiya, Fransa və İtaliya şirkətləridir. Hazırda ölkəmizdə minlərlə xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Xarici şirkətlər, eyni zamanda, Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində fəal iştirak edirlər.

Burada çox əhəmiyyətli bir gerçəkliyi də qeyd etmək lazımdır ki, Azərbaycanın maliyyə ehtiyatları artdıqca xarici ölkələrə sərmayə qoyuluşunun həcmini artırır. Bu istiqamətdə ən çox sərmayə qardaş Türkiyəyə yatırılıb.

Qeyd edək ki, ötən il oktyabrın 19-da açılışı gerçəkləşən "Star" neft emalı zavoduna SOCAR tərəfindən 6.3 milyard dollarlıq investisya qoyulub. Bununla da ölkəmizin son 20 ildə qardaş Türkiyəyə yatırdığı sərmayə ümumilikdə 19,5 milyard dollar civarındadır. Son doqquz ildə bunun 12,6 milyard dollarlıq hissəsi müxtəlif layihələrə yatırılıb. Zavoda 80.000 tonluq ilk xam neft yükü Azərbaycandan gəlib. Qürurverici faktdır ki, zavod Avropa, Orta Şərq və Afrikanı əhatə etməklə bölgədə ən nəhəng neft emalı müəssisəsidir.

Eyni zamanda, ölkəmizin Avropa İttifaqı (Aİ) ilə qarşılıqlı hörmət və maraq prinsipləri üzərində qurulan iqtisadi münasibətləri də xarici sərmayənin həcmini genişləndirir. 2018-ci ilin iyul ayının 11-də Brüsseldə Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun iştirakı ilə tərəflər arasında "Tərəfdaşlıq prioritetləri" sənədi paraflandı.

Bu sənəd Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açdı. 2018-2020-ci illəri əhatə edən sənəd tərəfdaşlığın bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir.

Ötən il Bakıda keçirilən Azərbaycan-Avropa İttifaqı IV biznes forumunda da bütün bu məsələlərə toxunulub və tərəflər arasındakı münasibətlərin yeni inkişaf mərhələsində olduğu vurğulanıb. Qeyd edilib ki, bu gün Avropa İttifaqı Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır.

2018-ci ildə Avropa İttifaqının Azərbaycanın xarici ticarətindəki payı 42 faiz olub və 10 milyard dollar təşkil edib. Ümumiyyətlə, müstəqillik dövründə Aİ-dən Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın investisiya yatırılıb. Azərbaycanda Aİ ölkələrinin 1500-dən çox şirkəti fəaliyyət göstərir. İttifaqın bir sıra ölkələri (Almaniya, Fransa, Avstriya, İtaliya, Yunanıstan, Polşa və s.) ilə Azərbaycan arasında ticarət palataları fəaliyyətdədir.

Bu gün Azərbaycan Aİ-nin əsas enerji tərəfdaşlarındandır. Bakıda rəsmi açılışı olmuş Cənub Qaz Dəhlizi, Türkiyədə tamamlanan TANAP layihəsi enerji sahəsində strateji əməkdaşlığın gözəl nümunələrindəndir. 4 seqmentdən ibarət olan bu layihə Azərbaycan qazını birbaşa Avropaya çatdıracaq.

Ümumiyyətlə, MDB Statistika Komitəsinin ötən il açıqladığı iqtisadi göstəricilərdə Azərbaycan xarici ölkələrə yatırdığı iri həcmli sərmayələrə görə MDB məkanında ilk üçlükdədir.

**Elçin Zaman,**
***"İki sahil"***

# Davamlı sosial siyasətin uğurlu nəticələri

**İlin əvvəlindən bəri dövlət başçısı bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəldilməsinə, onları narahat edən müxtəlif sosial məsələlərin həllinə yönələn çoxlu sayda Fərman və sərəncamlar imzalayıb.**



Dövlət başçısının imzaladığı sənədlər əsasında müvafiq kateqoriyadan olan şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsini, problemli kreditlər məsələsinin həllini tapmasını, bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsini, əməkhaqlarının, pensiyaların, tələbə təqaüdlərinin, müavinətlərin artırılmasını və digər belə tədbirləri qeyd edə bilərik. Sosial sahədə atılan bu kimi addımlar bilavasitə insanların rifah halının yaxşılaşdırılmasına, onların gəlir imkanlarının artırılmasına hesablanıb. Bütövlükdə deyə bilərik ki, 2019-cu ilin əvvəlindən bəri Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu və bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrılıb.

Prezident İlham Əliyev iyunun 18-də minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında bir sıra sərəncamlar imzalaması dövlət və özəl sektorda çalışanların gəlirlərini əhəmiyyətli dərəcədə artırması dövlətin sosial siyasətinin davamlı olduğunun parlaq təzahürüdür.

Dövlətimizin başçısı məcburi köçkünlərin də yaşayış səviyyəsinin yüksəldilməsinə daim qayğı göstərir, onların yaşayış şəraitlərinin yaxşılaşması üçün əhəmiyyətli tədbirlər həyata keçirir. Ölkədə bir dənə də olsun çadır şəhərciyinin qalmayacağını bəyan edən Azərbaycan Prezidenti verdiyi vədi artıq yerinə yetirib. Bu müddətdə qaçqın və məcburi köçkünlərin işlə təmin olunmaları və həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Şəhidlərin varəsələrinə birdəfəlik ödəmələrin verilməsi, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillər alınması, şəhid ailələri üçün Prezidentin aylıq təqaüdünün 300 manata çatdırılması, sosial müavinətlərin orta hesabla 100 faiz, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətlərin 50 faiz artırılması və digər müvafiq qərarlar sosial sahədə inqilabi dəyişikliklərin davamlı xarakter aldığını göstərir. Ümumilikdə, 3 milyona yaxın insanı əhatə edən bu sosial paket ölkə başçısının siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığına bariz nümunədir.

Həmçinin problemli kreditlərlə bağlı məsələ ölkə başçısının 2019-cu il 28 fevral tarixli Fərmanı ilə birdəfəlik həllini tapdı. 800 mindən çox insanın narahatlığına bir gündə son qoyuldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu Fərmanın dünyada analoqu yoxdur: "Dövlət bir daha göstərdi ki, vətəndaşının yanındadır. Ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosialyönümlü və vətəndaşın marağını güdən addım olmamışdır". İllərdən bəri yığılıb qalmış daha bir problem dövlətimizin başçısının fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanla həllini tapdı. Bu sənəddən istismarına icazə verilməmiş yaşayış binalarında mənzil alan 340-400 minədək insan faydalanacaq.

**Zahid Rza,**
***"İki sahil"***

# Paşinyanın manipulyasiyaları güclənən etirazların qarşısını ala bilmir



Küçə inqilabının toz- torpağı ilə hakimiyyətə yiyələnən Ermənistanın baş naziri Nikol Paşinyan onu gözləyən burulğan və fırtınadan çox narahatdır. Səsucaldan vasitəsilə çığır-bağırı daha gur eşidilən, ermənilərə həyat şəraitlərinin yaxşılaşacağı ilə bağlı vədini yerinə yetirə bilməyən baş nazir başını itirib. Xoş güzərana ümid edən ermənilər ölkəni bürüyən siyasi manipulyasiyaları, macəraları izləməkdən artıq yoruldular. Hakimiyyətə gəlişindən ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də əhalinin sosial şəraitinin yaxşılaşması naminə barmağını belə tərpətməyən baş nazirin "fəaliyyət prinsipi" bir vaxtlar ona toxunanlarla hesab çəkməkdən ibarətdir. Buna görə də sələfləri Robert Koçaryanın və Serj Sarkisyanın bizneslərini, hakimiyyətdə olduqları zaman yol verdikləri nöqsanları aşkarlamaqla gününü başa vurur, xalqını aldadır.

Artıq erməni xalqı kimi, baş nazirin "Mənim addımım" partiyası da hiss edir ki, Paşinyanı hakimiyyətə gətirməklə daha bir tarixi səhvə yol veriblər. Erməni mətbuatının yazdığına görə, keçmiş prezident Koçaryandan sonra onun xələfi Sarkisyanın həbsinə də hazırlıq görülür.

Bundan əlavə, aprel döyüşlərində canlı qüvvə və hərbi texnika sarıdan xeyli itki verən Ermənistanı bu vəziyyətə salanlar haqqında kompromatlar toplanılır. Amma bu işdə də piyada olduğunu kadr islahatları ilə sübut edən Paşinyanın gedişləri erməni xalqında gülüş və təəccüb doğurur. Çünki Aprel döyüşləri zamanı Ermənistanın müdafiə nazirinin müavini olmuş, bilavasitə döyüş hazırlıqlarına məsul David Tonoyanı müdafiə naziri təyin edən Paşinyanın kimləri mühakimə edəcəyi sual altındadır.

Bu kimi əməlləri ilə ölkədə yaranan gərginliyi aradan qaldırmağa çalışan Paşinyanın əslində bütün manipulyasiyalarının əsl səbəbini hiss edən ekspertlər kimi, əhalinin də baş nazirə etimadı xeyli azalıb.

Cənubi Qafqaza səfəri çərçivəsində Azərbaycanda, Ermənistanda, Gürcüstanda olan Avropa İttifaqının Prezidenti Donald Tuskun işğalçılıq faktının yolverilməz olduğunu bildirməsi, ATƏT-in Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynayacaq yeni yanaşmanın ortaya qoyulması işğalçıya ciddi mesajdır. "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: parlamentlərin rolu" mövzusuna həsr olunmuş həmin sessiyada münaqişələrin dayanıqlı inkişaf və insan hüquqlarının təmini üçün əsas manea olması xüsusilə vurğulanır. Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində məcburi köçkün olan azərbaycanlıların da hüquqlarının müdafiəsini nəzərdə tutan bu çağırış separatizmə qarşı vacib yanaşmadır. Fransanın Paşinyan hakimiyyətinə etimadının azalması Ermənistanda yeni etiraz dalğasının yaranması üçün əsaslı amillərdəndir. Fransa inzibati məhkəməsinin separatçı rejim qondarma "Dağlıq Qarabağ Respublikası" ilə Fransanın bir neçə şəhəri ilə dostluq xartiyasını ləğv etməsi "əbədi dostluq" halqasını zəiflədib.

Əvvəlki illərdə Parisə səfəri zamanı 170 min şirkəti birləşdirən Fransa Sahibkarlar Təşkilatına-MEDEF-ə üzv olan iş adamları ilə keçirilən görüşdə "Ermənistan innovasiyalar ölkəsidir" söyləyən sabiq prezident Serj Sarkisyanın fransalı investorları öz ölkəsinə sərmayə yatırmağa dəvət etməsini əsassız iddia, gülünc adlandıran, fikrini " Əgər bu qədər ağıllısansa, niyə bu qədər kasıbsan" kimi müdrik kəlamı ilə bildirən Prezident İlham Əliyev hələ o zaman Ermənistanın bu fikirlərini sərsəmlik adlandırmışdı. Bu günlərdə ölkəmizdə MEDEF nümayəndələri ilə görüşündə Azərbaycan iqtisadiyyatının şaxələndirmə prinsiplərinə uyğun inkişafını diqqətə çatdıran dövlət başçımız kimi, fransalı iş adamları da vurğuladılar ki, tanınmış şirkətlər yalnız inkişaf etmiş, sabit, investisiyayönümlü Azərbaycan kimi ölkələrlə əməkdaşlıqda maraqlıdırlar. İqtisadiyyatı illərdən bəri böhran içərisində olan Ermənistana isə heç bir ölkə sərmayə yatırmaz.

Erməni lobbisinin, "Daşnaksütyun" partiyasının hazırkı hakimiyyətlə münasibətlərinin tərs mütənasiblik formulu ilə davam etməsi, Xankəndi erməniləri ilə İrəvan erməniləri arasında yaranan qarşıdurmalar Paşinyan hakimiyyətinin sonunun yaxınlaşdığını göstərən ciddi faktlardır. Gürcüstandan Ermənistana olan yolda yaranan çətinlik, forpostu olduğu Rusiyadan qazın alınması ilə bağlı narazılıq hələ də gündəmdir. Rəsmi İrəvanın Avropaya, ABŞ-a , NATO-ya jestləri havadarının Ermənistana olan mülayim münasibətlərini sərinləşdirib. İqtisadi böhran içərisində qalan, erməni lobbisinin yardımları hesabına əhalisinin tələbatını qismən ödəyən Paşinyan yaxın müddətdə bu imtiyazdan da məhrum olacağını nəzərə alaraq yollar axtarır. Bu yollar isə onu geriyə çəkir. Yəni sönmüş ocağın külü ilə oynayan Paşinyan bununla da isinə biləcək yeni ocaq başı axtarır. Amma nə qədər çalışsa da, xarici ekspertlərin də bildirdikləri kimi iqtisadi, hərbi qüdrəti artan Azərbaycanla müqayisə olunmayacaq dərəcədə miskin olan Ermənistan işğal etdiyi torpaqları azad etməyə məcburdur. Dünyanın enerji və nəqliyyat xəritəsini dəyişən, Azərbaycanın təşəbbüsü ilə reallaşan qlobal layihələrdən kənarda qalan Ermənistanın siyasətdən xəbərsiz erməni havadarlarının göstərişlərinə baxmadan bu barədə də düşünməlidirlər.

✍ **Xuraman İsmayılqızı, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**radiotexniki meteoroloji stansiya kompleksinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin (11072AM-19) müddətini uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.08.2019-cu il, Bakı vaxtı ilə saat: 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 354 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab:
AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

* Hesab nömrəsi: USD

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN
AZ28IBAZ38110018409306332120 USD

* Hesab nömrəsi: EUR

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ08IBAZ38110019789306332120 EUR

* Hesab nömrəsi: GBR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan 150 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin təminatı 8250 AZN və ya ona ekvivalent dəyərdə ABŞ dolları və avro ilə tələb olunur. (Təminat ayrıca bağlı zərfdə təqdim olunmalıdır)*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

*VII. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu;
Neftçilər prospekti 73;
SOCAR, "Azneft" İB
Əlaqələndirici şəxs:
Əsgərov Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 381 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 81
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamil.asgerov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 06.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyinin

**PUMA hava kompressoru və Omax buxar qurğusunun ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11151AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;

* İştirak haqqının ödənilməsi barədə bank sənədi;

* Müsabiqə təklifi.

* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 14.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dillərində Satınalan təşkilatın elanda göstərilmiş elektron ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

** Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.*

** Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.*

** İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.*

** İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.*

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

* 1-ci lot üzrə 59 Azn (ƏDV-ilə)

* 2-ci lot üzrə 59 Azn (ƏDV-ilə)

* Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab:
AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN
AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:
AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

**** IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu;
Neftçilər prospekti 73;
SOCAR, "Azneft" İB
Əlaqələndirici şəxs:
Musayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 337 (daxili)
korporativ mobil nömrəsi: +99450 417 71 01
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı:kamilH.musayev @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 20.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00 da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək: http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Sürücü məsuliyyətini dərk edərsə...

***Mütəxəssislər qəzaların səbəblərini və həlli yolunu nədə görür?***

"Yüksək sürət can aldı", "Paytaxtda ağır yol qəzası baş verib", "Avtomobil yolu keçmək istəyən piyadanı vurdu", "Qəzada - ölən və yaralananlar var" başlıqlı xəbərlərə yəqin ki, bir çoxlarınız son bir ayda daha çox rast gəlirsiniz. Bununla bağlı da ölkə gündəmində ardıcıl olaraq silsilə informasiyalar yayılır. Təbii ki, hər hadisənin bir səbəbi olduğu kimi bütün bu yol-nəqliyyat hadisələrinin də tutarlı səbəbləri var.



**Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov sözügedən məsələnin bir çox məqamlarından bəhs etdi:** "Yol-nəqliyyat hadisələrinin ən əsas səbəbi məhz yüksək sürət həddidir. Sürücülərimizin bəziləri avtomobildən əyləncə vasitəsi kimi istifadə edirlər. Təhlükəli manevrlər edirlər, sürət həddini pozurlar. Bunların nəticəsində də qəzaların sayı artır. Hətta sükan arxasında elə insanlar əyləşir ki, yol hərəkəti qaydalarını bilmirlər. Bütün bunlar isə "qəza statistikası"na təsir göstərən amillərdi. Magistral yollarda nişanların sayı yetərincə deyil, azlıq təşkil edir. Bu faktoru da nəzərə alırıq ki, yollarda nişanların qoyulmasında problem var. Bəzi hallarda işıqforlar işləmir. Telefonla danışma və paralel şəkildə sükanın idarə olunması zamanı istər-istəməz diqqət telefona yönəldiyindən avtomobil "sahibsiz" qalır. Bu da bütövlükdə sürücü məsuliyyətsizliyi deməkdir".

Ekspert onu da qeyd etdi ki, təkcə sürücülərin deyil, piyadaların da günahı ucbatından baş verən qəzalar olur: "Məsələn, nəqliyyat vasitələrinin sürətlə hərəkət etdiyi magistral yollarda, insanlar yerüstü keçidlərdən çox vaxt istifadə etməyə meyilli olmurlar. Bunun müxtəlif səbəblərini gətirirlər. Bəzən bu səbəblər obyektiv olur, tutaq ki, hansısa bir keçiddə eskalator işləmir, hava boğucudur və s. Bəzi hallarda isə səbəblər subyektiv ola bilər ki, hansısa bir keçid uzaq məsafədədir və həmin uzaq məsafəni qət etməkdə insanlar çətinlik çəkir".

A.Allahverənovun sözlərinə görə, qəzaların artmasının digər səbəbləri də var: "Bu səbəblər xüsusilə də indiki şəraitdə yolların təmir olunması, bir sıra yolların bağlanılması, bəzi hallarda alternativ yolların məhdud olması, təmir-tikinti işlərinin aparılmasıdır. Bunlar hamısı bir-biri ilə əlaqəli şəkildə yol infrastrukturuna, nəqliyyat vasitələrinin idarə olunmasına təsir edən amillərdir".

"Xüsusilə taksilər və sərnişin daşınması ilə məşğul olan digər nəqliyyat vasitələri gün ərzində 10-12 saat, elə taksi sürücüləri var ki, hətta 14 saat belə, nəqliyyat vasitəsini idarə edir, pul qazanmaq istəyir. Təbii ki, gün ərzində bir neçə saat asfalt üzərində dincəlmədən nəqliyyat vasitəsini idarə etmək onun səhhətinə və nəqliyyat vasitəsini idarə etməsinə mənfi təsirini göstərir", - deyə ekspert əlavə etdi.

Azər Allahverənov onu əlavə etdi ki, bəzi xroniki xəstəliyi olan insanlar isti havalarda sükan arxasında özünü pis hiss edə bilər: "Əgər sürücüdə qan təzyiqi, ürək çatışmazlığı varsa, o kondisioner olmayan avtomobillə yola çıxmamalıdır. Çünki istidən bu xəstəlik kəskinləşə bilər. Bu zaman sürücü idarəetməni itirər və qəza baş verə bilər".



**Nəqliyyat eksperti Elməddin Muradlı isə açıqlamasında bildirdi ki,** bəzi avtomobillərdə kondisionerlərin olmaması, isti nəticəsində yaranan yuxu, yorğunluq, tələskənlik qəzalara səbəb olur. Yorğun, yuxulu halda yola çıxmaq olmaz. Bütün polis postlarında sürücülərin istirahət etməsi üçün şərait yaradılıb. Yorğunluq hiss edilən zaman bu postlara yaxınlaşaraq su içmək, dincəlmək mümkündür.

Ekspertin sözlərinə görə, avtomobil qəzaları günün səhər və axşam saatlarında, yeni daha çox pik saatlarda baş verir: "Bu saatlarda daha çox sıxlıq olduğu üçün sürücülərdə aqressiya, psixi gərginlik yaranır və əksər sürücülər qayda pozmağa meyillənirlər. Bu da çox zaman avtomobil qəzaları ilə nəticələnir. O qeyd etdi ki, əksər qəzalar Moskva, Qara Qarayev, Nobel və Heydər Əliyev prospektlərində baş verir. Prospektlərin əksəriyyətində, xüsusən də kənar dairəvi yolda sürət həddi yüksək olduğu üçün qəzaların ağırlıq dərəcəsi də yüksək olur.

***Baş qəzaların qarşısını almaq, sayını azaltmaq üçün hansı tədbirlər görülməlidir?***

"Digesta" hüquq firmasının direktoru, nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov mövzu ilə bağlı mətbuata açıqlamasında bildirdi ki, poblemlərin həlli üçün yol hadisəsinə olan yanaşmalar kökündən dəyişməlidir: "Baş verən yol-nəqliyyat hadisələrini ortaya qoymaq və daha sonra bu qəzaların həlli istiqamətində konkret tədbirlər görmək lazımdır. Yalnız sürücülər deyil, yol hərəkəti iştirakçılarının hər biri məsuliyyətli olmalıdır. Məsələn, qəzalarda sürücü günahkardırsa, deməli, sürücülərin hazırlığı işi zəifdir. Yaxud da qəzalara səbəb yol infrastrukturudursa, o zaman yollara nəzarət gücləndirilməlidir. Ümumilikdə sürücülərin, piyadaların maarifləndirilməsi lazımdır. Bunlarda müəyyən problemlər var. Problemləri də aradan qaldırmaq üçün proqram çərçivəsində geniş şəkildə işlər görülməlidir".

Unutmayaq ki, biz özümüzdən başqa insanların da həyatını təhlükəyə ata bilərik. Ona görə də imkanlarımızdan da artıq məsuliyyətli olmalıyıq. Sürücü öz məsuliyyətini dərk edərsə yəqin ki, baş verəcək qəzaların həm sayı, həm də ağırlığı azalar.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## “Azəriqaz” İstehsalat Birliyi

**Xüsusi geyim və fərdi mühafizə vasitələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin Lot1 (29020-19) üzrə müraciət tarixinin və zərflərinin açılış tarixinin uzadılmasını elan edir.**

***I.Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).
* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II.Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III.Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, Rus və ya İngilis dilində əldə etmək istəyənlər satınalınan mallar Lot 1 üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

* Hesab nömrəsi:
* Azərbaycan Beynəlxalq Bankı ASC,
* AZ38IBAZ38010019449306332120 (AZN),

VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:

TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: (lot1)***
Müsabiqə təklifinin təminatı:
*I.İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II.Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III.Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV.Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
Avans ödənişinə görə təminat:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Müqavilənin yerinə yetirilməsi təminatı:
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 təqvim günü müddətində yerinə yetirilməsi tələb olunur.VITəltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***VII Satınalan təşkilatın ünvanı:***
AZ1025;
Bakı şəhəri; Xətai rayonu;
Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Nuriyeva Aytən
“Azəriqaz” İB-nin Satınalmaların təşkili şöbəsinin mühəndisi
+994 12 521-00-00 (daxili 29 490)
ayten.e.nuriyeva@socar.az

***VIII.Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX.Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə Lot 1 üzrə 11:00-da, elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X.Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Azəriqaz” İstehsalat Birliyinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı zavodu

**reagentlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17021-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 02 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 177 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic “ Customer Service Department, SWIFT: İBAZAZ2X,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department, SWIFT: İBAZAZ2X
Nizami str., 67, Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 USD

İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Təminatlar: tədbiq edilmir***
***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay müddətinə yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
Əlaqələndirici şəxs:
Mustafayeva İlahə, Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17988
+994 12 521-23-51.
Ilaha.Mustafayeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 02 avqust 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Heydər Əliyev adına Neft Emalı zavodunun Satınalmalar qrupu**

*Qəmər Cavadlı:*

## Azərbaycan İslam sivilizasiyasının tərəqqisində mühüm rol oynayıb



"Bu gün dünyada baş verən bir sıra təhlükəli hadisələrin fonunda, bəşəriyyətin narahat gündəm yaşadığı bir zamanda Azərbaycanın İslamın mənəvi-əxlaqi və elmi-mədəni dəyərlərinin təbliğinə xüsusi diqqət yetirməsi olduqca təqdirəlayiqdir. Bu mənada dinimizin həqiqi mahiyyətinin və mənəvi dəyərlər sistemində tutduğu yerinin təbliği baxımından "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu da dövlətimizin ideoloji siyasəti ilə üst-üstə düşür". **Bu sözləri Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, filologiya üzrə fəlsəfə doktoru Qəmər Cavadlı bu günlərdə Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın Akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun nəticələri ilə bağlı fikirlərini "İki sahil" qəzeti ilə bölüşərkən söylədi.**

Bildirdi ki, Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır: "Prezident İlham Əliyevin simpozium iştirakçılarına ünvanladığı müraciətdə bildirdiyi kimi, Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir. Bu mənada İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixən müsəlman sivilizasiyasının yaranması və tərəqqisində mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyev "Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır" söyləməklə İslam sivilizasiyasının Qafqazda bərqərar olmasında Azərbaycanın oynadığı əhəmiyyətli rola diqqət çəkib. Tarixən olduğu kimi, bu gün də ölkəmizdə islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir".

Müsahibimiz, həmçinin vurğuladı ki, belə bir tədbirin iyul ayında keçirilməsi heç də təsadüfi olmayıb: "Belə ki, "İslam sivilizasiyası Qafqazda" adlı ilk Beynəlxalq Simpozium 9-11 dekabr 1998-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı əsasında təşkil olunub. Qeyd edim ki, ümummilli lider Heydər Əliyev Azərbaycanın elm, ədəbiyyat və sənət tarixində xüsusi yer tutan, elmi-fəlsəfi və bədii-estetik dünyagörüşünü formalaşdıran İslam mənəvi dəyərlərini yüksək qiymətləndirirdi. Ulu Öndər dəfələrlə Azərbaycan mədəniyyətinin İslam dəyərləri ilə zənginləşdiyini önə çəkərək bununla fəxr etdiyini bildirmiş, müasir dövrün mədəni quruculuğunda İslam yaddaşını yaşatmağın, yeni sənət nümunələri ilə zənginləşdirməyin zəruriliyini vurğulamışdır. Ulu Öndər ölkənin müasir inkişaf yolunda və qloballaşan dünyaya qovuşmasında xalqın öz milli-mənəvi simasını saxlamasını ən önəmli şərt hesab etmiş, bu işdə İslam dəyərlərini ən güclü amil kimi dəyərləndirmişdir. 15 ölkədən 50-yə yaxın xarici qonağın iştirakı ilə keçirilən "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun Ulu Öndərin hakimiyyətə gəlişinin 50 illiyi ərəfəsində təşkili də elə bu şəxsiyyətə olan məhəbbətdən irəli gəlib".

Həmsöhbətimiz bildirdi ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğı, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının, eləcə də Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi mühüm beynəlxalq tədbirlərin Bakıda keçirilməsi söylədiklərimin sübutudur. Bir sözlə, son illərdə Bakı Qafqazda İslam mədəniyyətinin mərkəzinə çevrilib. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyada İslam mədəni irsini qoruyub saxlayan, həmçinin tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanınır. Bu məsələdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini də xüsusi vurğulamaq istərdim".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Etnik və dini mənzərənin rəngarəngliyinə görə dünyada unikal məkan

*Bakıda "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsi Azərbaycanın İslami dəyərlərin təbliğində artan rolunun növbəti təzahürüdür*




**Şərqlə Qərb dəyərlər sisteminin qovuşması üçün ölkəmizdə münbit şəraitin mövcudluğu, sivilizasiyalararası münasibətlərin möhkəmlənməsi, mədəni əlaqələrin inkişafı xalqlar arasında qarşılıqlı əməkdaşlığın güclənməsinə təsir edən başlıca amillərdir.**

Şərqi Asiya Qərbi Avropa dəyərlərini eyni istiqamətdə birləşdirən və "sərhəd mədəniyyətini" formalaşdıran qlobal proseslər bütünlükdə dünya xalqlarının inkişafına təsirsiz ötüşməmişdir. Dünya mədəniyyət xəzinəsinə bənzərsiz incilər, dahilər bəxş edən Azərbaycan sivilizasiyalar, Şərqlə Qərb arasında körpü rolunu oynayan, geosiyasi əhəmiyyətə malik bir ölkədir.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə unikal dövlət sayılan, tarixi İslam dini ilə bağlı olan Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən olmaqla müxtəlif xalqların ikinci doğma Vətəni sayılır. Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri, abidələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "İslam Sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumunun ilk dəfə Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığının bariz nümunəsi idi. Həmin simpoziumda çıxış edən ulu öndər Heydər Əliyevin "Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda, xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk" sözləri sübut edir ki, Azərbaycan xalqı təbiətinə, xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir.

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43 sessiyasından sonra paytaxtımızda "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsi islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verən, siyasi sabitliyi ilə seçilən, dini-mədəni müxtəlifliyə hörmətlə yanaşan Azərbaycanda multikulturalizm ənənələrinin zəngin tarixə malik olduğunu göstərir.

Əvvəlki illərdə də Azərbaycanda mütəmadi keçirilən Bakı Beynəlxalq Humanitar forumlarında, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, Dünya Dini Liderlərinin Forumunda, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda ölkəmizdən dünyaya ünvanlanan çağırışlar, Birinci Avropa Oyunlarının ilk standartlarının Azərbaycanda müəyyənləşdirilməsi, IV İslam Həmrəyliyi Oyunlarının təşkili də göstərir ki, müxtəlif dinlərə, millətlərə məxsus xalqlar ölkəmizdə eyni hüquqlara malik vətəndaşlardır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən humanitar tədbirlər əməkdaşlığa xidmət edir, sivilizasiyalararası körpüləri möhkəmləndirir, müxtəlif ölkələrin və dinlərin təmsilçiləri, fərqli fikirli insanlar arasında daha böyük anlaşma üçün humanitar platforma yaradılır. Dünya ictimaiyyəti tərəfindən dəstəklənən və iştirakçılarının sayı artan, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əməkdaşlıq tribunası olan "Bakı Prosesi" kimi tədbirlərin təşkilində məqsəd terror, ekstremizm kimi mənfi hallara qarşı birgə mübarizəni gücləndirmək, münaqişə zonalarında sülhə nail olmaqdır. Fərqli dinlərə qarşılıqlı hörmət bu sahədə ən əsas amildir.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olduğunu İslam aləminin ayrılmaz parçası olması ilə təsdiqləyən Azərbaycan bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi milli münaqişələrin gücləndiyi narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirildi. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı bir zamanda insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən, İslami dəyərlərin təbliği istiqamətində xüsusi rolu olan Azərbaycan mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərini davam etdirir. Bu təşəbbüsə real nümunə "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçməsidir. Simpozium iştirakçılarına ünvanlanan məktubunda toplantının işinə uğurlar arzulayan, bu tədbirin Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyini bildirən Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin bütün səyləri təhlükəsizliyin, sabitliyin və proqnozlaşdırmanın, eləcə də xalqlar arasında sülh şəraitində birgə yaşamanın və anlaşmanın möhkəmləndirilməsinə yönəlib: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir, bizim həyat tərzimizdir. Biz çoxmillətli, çoxkonfessiyalı cəmiyyətimizdən fərəhlənirik. Bütün dinlərin və etnik qrupların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Hesab edirəm ki, bu, indiki dünyada böyük zənginlikdir. Biz, həmçinin öz təcrübəmizi bölüşmək istərdik. Fikrimcə, müasir Azərbaycanın bugünkü inkişafı bunun yeganə düzgün siyasət olduğunu göstərir."

Şərq və Qərb dəyərlərinin sintezi, Azərbaycanın demokratiya modelinin xüsusiyyətləri ölkəmizə marağı artırmaqla sübut etdi ki, bəşəri dəyərlərə cəmiyyətin ictimai-siyasi inkişafının əsas istiqamətləri kimi diqqət göstərilir. Multikultural cəmiyyətin formalaşması Azərbaycanın dövlət siyasəti, həyat tərzidir. Dünyada sivilizasiyalararası dialoqa ehtiyacın artdığı, qarşıdurmaların kəskinləşdiyi bir zamanda "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun panellərlə davam etməsi, aparılan maraqlı müzakirələr, humanitar tədbirlərin təşkilində Azərbaycanın təşəbbüskarlığının yüksək qiymətləndirilməsi ölkəmizdə İslami dəyərlərin tarixi köklərinin olmasını da göstərir.

Dünyamızda irqçilik, ksenofobiya, islamofobiya təzahürlərinin gücləndiyi bir məqamda ölkəmizin daha bir missiyanı üzərinə götürərək müsəlman ölkələri arasında həmrəyliyin möhkəmlənməsi naminə insani dəyərlərin təbliği üçün geniş imkan yaratması Azərbaycanın sülhsevər siyasətinin təsdiqidir. Cənubi Qafqazda sülhün təminatında rolu artan, səyləri nümunə göstərilən ölkəmizdəki dövlət-din münasibətlərinin tolerantlığın, əməkdaşlıq və həmrəyliyin təminatına yönəldilməsi multikulturalizmin Azərbaycanın dövlət siyasətinin əsasını təşkil etdiyini göstərir. Haqlı olaraq bildirilir ki, milli-mənəvi dəyərlərin qorunmasında və təbliğində, dini radikalizmə, terrorizmə qarşı apardığı mübarizəsi ilə fərqlənən, dinlərarası dialoqların təşkilinə diqqətlə yanaşan ölkəmizin İslam coğrafiyasında yeri və rolu müstəsnadır.

Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə kiberekstremizm əleyhinə əks-təbliğat tədbirləri, münaqişə zonalarında sülhün bərqərar edilməsi prosesində qadınların rolu, davamlı və inklüziv inkişaf naminə idman, qlobal miqrasiya prosesində şəhərlərin rolu ilə bağlı müzakirələrdə dünyada baş verən siyasi, iqtisadi dəyişikliklərə nəzər yetirilir, münasibətlərin tənzimlənməsi yolları öyrənilir. Həlli vacib, qlobal məsələlərlə bağlı təklif və təşəbbüslər, multikulturalizm sahəsində qazanılan nailiyyətlər, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, milli və ümumbəşəri dəyərlərin, milli və dini müxtəlifliyin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, ayrı-ayrı istiqamətlərdə müşahidə olunan problemlərin həllinə imkan yaradan qarşılıqlı əməkdaşlığın möhkəmlənməsi ilə bağlı təcrübələr təbliğ olunur. Təbii ki, sivilizasiyalararası dialoq mərkəzi kimi tanınan, milli və regional əhəmiyyətli tədbirlərə ev sahibliyi edən Azərbaycanın dini radikalizmə qarşı mübarizədəki rolu qiymətləndirilir. Dünya dövlətlərinin Azərbaycana olan hörməti, etimadı, respublikamızın beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyi, multikultural dəyərlərin təşviqi və sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələrin təbliği Azərbaycanın təşəbbüslərinə verilən qiymətin real ifadəsidir. Birgə yaşayış və əməkdaşlıq prinsiplərinə sadiqliyi ilə diqqət çəkən Azərbaycanda bu istiqamətdə həyata keçirilən islahatların uğurlu nəticələri isə göz qabağındadır. Ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf, dini və milli azadlıqların təmin edilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Milli və dini, vicdan, söz azadlıqları tam təmin olunur, Azərbaycanın tolerantlıq təcrübəsi başqalarına nümunə göstərilir. Roma Papası II İohan Pavelin "Azərbaycan xalqı özünəməxsus və nadir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivilizasiyalarının sintezi dayanır" sözləri təsdiqləyir ki, ölkəmiz öz geosiyasi mövqeyinə, etnik və dini mənzərəsinin rəngarəngliyinə görə Qafqazın, bəlkə də dünyanın unikal guşələrindən biridir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**CAS-WBK-NT 80 markalı (80 tonluq) avtomobil tərəzisinin ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26039-19) üzrə zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 02.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
Əlaqələndirici şəxs:
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon : (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks : (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 02.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Mebelə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26062-19) üzrə zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 02.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 30 (otuz) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
Əlaqələndirici şəxs:
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon : (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks : (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 02.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 127 (7382) / Çərşənbə, 17 iyul 2019-cu il

# Təsadüfən, amma yaxşı ki, ixtira olundu

## VƏ YAXUD Wİ-Fİ NECƏ YARANDI?



Avstraliyalı alim John O'Sullivan Stiven Hokinqin qara dəliklərin "buxarlanması" və onlardan sonra yaranan radio dalğalar nəzəriyyəsindən ilhamlanaraq nəzəriyyənin düzgünlüyünü sübut etməyə çalışırdı. Bunu edərkən yaranan zəif siqnalların bütün kainata yayılan radio dalğaların səsindən ayırmaqda çətinlik çəkdiyini anladı.

Bu kiçik siqnallar böyük məsafələr qət etmiş və kosmosun qaz və tozlarının təsirindən kiçilmişdi. Dalğaların forması sərt olsa da sanki sünbülü xatırladırdı. Məhz bu səbəbdən O'Sullivan və onun rəhbərliyi altında çalışan tədqiqatçılar radio dalğalarını müəyyənləşdirə və filtr edə bilən xüsusi bir cihaz yaratmağa çalışırdılar.

Aparılan bir neçə tədqiqatdan sonra O'Sullivan və həmkarı riyazi formuldan istifadə edərək cihaz yarada bildilər. O vaxt ətrafdan gələn və maneə törədən siqnalları uzaqlaşdıran, onlara lazımlı siqnalları isə özünə cəlb edən cihaz hazırlanmalı idi. Lakin onlar qara dəliyin radio dalğalarını tapmaqda uğur qazanmadılar.

O'Sullivan 1992-ci ildə kompyuterlərdə simsiz ünsiyyət yarada biləcək bir yol axtarırdı.

Belə ki, O'Sullivan əvvəlki qara dəlik nəzəriyyəsində apardığı tədqiqatları xatırlayaraq , nəzəriyyə əsasında yaratdığı simsiz cihaz haqqında fikirləşməyə başladı. O'Sullivan daha əvvəl hazırladığı cihazın riyazi formulundan istifadə etdi . Bu zaman O'Sullivan özü də bilmədən müasir dövrdə istifadə etdiyimiz simsiz "Wi-Fi" cihazını yaratmış oldu.

Sonda isə öncə Stiven Hokinqə və onun nəzəriyyəsindən ilhamlanaraq bizə "Wi-Fİ" cihazını bəxş edən John O'Sullivana təşəkkür edirik .

**thefactsite.com saytının materialları əsasında hazırladılar:**

**Leyla Şıxəli ,**
**Fidan Əlizadə**

# Sızanaq izlərindən qurtulmağın yolları

**Sızanaq izlərindən canını tez qurtarmaq istəyənlər üzdəki izlərə dolğu etdirərək qısa müddət ərzində bu problemdən xilas ola bilərlər. Tez-tez seçilən bu üsulla, dəridəki sızanaq izləri kollagen və hiyaluron turşusu vasitəsilə bərpa oluna bilər.**

Sızanaq izləri lazer müalicəsi ilə də bərpa oluna bilər. Digər müalicə metodlarından daha bahalı olan bu prosedur sızanaq izlərinin müalicəsi üçün ən effektiv üsuldur. Bu üsul zədələnmiş dərini soyub dərinin üst qatını lazer ilə yandıraraq gənc, qüsursuz dəri yaratmaq məqsədi daşıyır. Yeni dərinin formalaşması bir neçə həftə çəkə bilər, lakin sızanaq izləri üçün qəti həlldir.

### SIZANAQ İZLƏRİ ÜÇÜN XÜSUSİ MASKA



Təbii vasitələr axtaranlar üçün mükəmməl bir müalicə reseptidir. Bunun üçün 1 çay qaşığı darçın, 1 yumurtanın ağı, 1 çay qaşığı bal, 1 çay qaşığı limonu yaxşıca qarışdırıb krem halına gətirin. Bu qarışıq dəri yaxşıca təmizləndikdən sonra tətbiq olunur. Təxminən 15 dəqiqədən sonra üzünüzü isti su ilə yuyun. Bu maskadan sonra üzünüzdə yanma hiss edə bilərsiniz. Bu, tamamilə təbiidir və qısa müddətdə keçəcək.

**Röya Rasimqızı,**
***"İki sahil"***




# "Huawei"-dən 3 milyard avroluq sərmayə

Çinin nəhəng telekommunikasiya şirkəti "Huawei" qarşıdakı 3 ildə İtaliyaya 3,1 milyard avro sərmayə yatırmaqla 1000-dək iş yeri yaratmaq niyyətindədir.

AZƏRTAC ANSA agentliyinə istinadla xəbər verir ki, bu barədə şirkətin İtaliyadakı nümayəndəliyinin rəhbəri Tomas Miao bildirib.

"İtaliyada "Golden Power" 5G texnologiyasının tətbiqi üçün şəffaf, səmərəli və ədalətli qaydalar məqsədəuyğundur. Hazırda bu, yalnız qeyri-Avropa tədarükçülərinə aiddir. Lakin bu, hər kəsə yönəldilməlidir. Çünki texnologiya neytraldır və geosiyasi məsələlərlə əlaqəli deyil", - deyə o bildirib.

### ALLAH RƏHMƏT ELƏSİN!

Heydər Əliyev adına Neft Emalı Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi zavodun baş mühəndisi Rasim İbrahimova, əzizi
**Mustafa müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini
**Xalid Qiyasəddin oğlu Kərimovun**
vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini
**Xalid Kərimovun**
vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi idarənin Qobustan regional təlim mərkəzinin nəzəri tədris üzrə aparıcı mütəxəssisi Ələsən İbrahimova, atası
**Cümşüd İbrahimovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Pirallahı rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi Manaf Manafov Dövlət Statistika Komitəsinin Aparat rəhbəri Cabbar Musayevə, anası
**Nərgiz xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın "Azneft" İB-nin "Qaz Anbarlarının İstismarı İdarəsi"nin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini
**Xalid Kərimovun**
vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

# CÜDOÇUMUZ RÜSTƏM ORUCOV DÜNYA REYTİNQ CƏDVƏLİNDƏ LİDERLİYİNİ QORUYUB



Azərbaycan cüdoçusu Rüstəm Orucov (73 kq) dünya reytinq cədvəlində liderliyini qoruyub.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Cüdo Federasiyası Budapeşt Qran-Prisindən sonra reytinq cədvəlini açıqlayıb. Qran-Pri yarışında bürünc medal qazanan Telman Vəliyev (73 kq) 31 pillə irəliləyərək 64-cü yerdə qərarlaşıb. Bu çəki dərəcəsində digər cüdoçumuz Hidayət Heydərov altıncı mövqedədir. Ağır çəkili cüdoçularımız Məmmədəli Mehdiyev (90 kq) dördüncü, Elmar Qasımov (100 kq) onuncu yerlərdədirlər. Uşangi Kokauri (+100 kq) isə bir pillə geriləyərək 15-ci pillədə qərar tutub.

Komandamızın digər üzvləri Nicat Şıxəlizadə (66 kq) 26-cı, Kəramət Hüseynov 37-ci, Orxan Səfərov (hər ikisi 60 kq) 38-ci sırada qərarlaşıblar.

Qadın cüdoçumuz İrina Kindzerska (+78 kq) isə dünya reytinq cədvəlində beşincidir.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 17.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8145
İndeks: 0151, Sifariş: 2276